# UŞAQ ALƏMİNİN GİZLİNLƏRİ

“Beyləqanın güllü yazı” hekayələr toplusunun bir bölümü də “Rəngbərəng muncuqlar” adlanır. Əlbəttə, bu bölmədə elə həmin adda bir hekayə də var. Ancaq müəllif ümumilikdə uşaq aləmini, uşaq toplumunu, uşaqların qeyri-adi və bir-birindən fərqli dünyalarını rəngbərəng muncuqlar kimi görür, onların hər birinin təbiətinə ayrılıqda yanaşma ilə varmaq istəyir. Beləliklə, gözlərimizin önündə uşaq aləminin bir qobeleni - dünyamızın uşaq xalısı canlanır.

Bölmənin ilk hekayəsi “Nigarançılıq”dır. Bu hekayədə kiçik yaşlı bir məktəbli - şəhərdə yaşayan İlkinlə ətraflı tanış oluruq. Məlum olur ki, İlkin yay tətili günlərində kəndə qonaq gəlib. Bir ay kənddə yaşayıb, buradakı uşaqlarla qaynayıb-qarışıb. Hətta uşaqlar da ona elə isinişiblər ki, vaxt qurtaranda heç ondan ayrılmaq istəmirlər. İlkin şəhərli diribaşlığı, çoxbilmişliyi ilə, eləcə də bir qədər hiyləgərlik qarışıq xasiyyəti ilə tezliklə uşaqların sevimlisinə çevrildiyindən həmyaşıdları ona xüsusi qibtə ilə baxır, hətta onun kimi olmaq belə istəyirlər. Kənddən ayrılmaq məqamı çatanda həmyaşıdları bir-bir onunla görüşür. Birgə keçirdikləri bir ayın xatirələrini yada salırlar. Hətta bu xatirələr yada düşdükcə az qala İlkini bir qəhrəman kimi görürük. Ancaq qatar yola düşməyə az qalmış Mübariz İlkinə yaxınlaşıb təklikdə ona pıçıldayır ki, Nigarın vedrəsindəki giləmeyvənin suya axıdılmasının onun işi olduğunu bilir. Bir sözlə, ona xatırladır ki, gopçu və yalançı olan hər hansı bir kəs yaxşı oxuya bilməz, belələrinin heç dostu da olmaz. Həmyaşıdları arasında ona bir kimsə hörmət də bəsləməz.

Bir anda İlkin sarsılır. O, özü üçün uydurduğu qəhrəman obrazı da özünün daxili mənəvi mühitində dağılıb gedir, hətta onun məsləhətiylə uşaqların tülkü balalarını ovlaması məsələsi də qoçaqlıq əlaməti kimi kara gəlmir.

Müəllif bundan sonra bütün diqqəti İlkinin üzərinə yönəldir. Onun daxili aləmində baş verən çırpınmalar, dəyişmələr özünün uşaq dünyasındakı gizlinləri öz gözündə ifşa olunur. Müəllif sanki həssas pedaqoq kimi uşağın duyğulanmalarını, səssiz pıçıltılarını dinləyə bilir. Onları elə İlkinin özünün eşidə biləcəyi bir həssaslıqla oxucularına danışmağa başlayır: “Bu anlarda İlkinin qəlbi böyük həyəcan içərisində idi. Oğlan çox narahatçılıq keçirirdi. Elə hey öz-özünə danışırdı: İndi Mübariz hər şeyi açıb uşaqlara deyib. Onlar da yəqin ki, mənə gülürlər. Axı niyə demədim ki, meyvələri suya mən axıtmışam. Mən yalançıyam, tənbələm, lovğayam. Özümü çox təriflədim, çox yalanlar dedim, onlar da elə bilirlər ki, mən, mən... Ürəyi yamanca dolmuşdu, az qala ağlamaq istəyirdi”. Uşağın daxilən kövrəlməsi, özü-özünü ittiham etməsi göstərir ki, o, hələ axıracan korlanmayıb. Çünki özünə kənardan baxa bilir. Öz səhvlərini görür. Demək, gördüyü səhvlərdən, danışdığı yalanlardan nəticə çıxarmaq imkanına da malik ola bilər. O, hətta təkcə özünü ittiham etmir, həm də dostlarının qarşısında özünü günahkar bilərkən bu vəziyyətdən necə çıxmağı da düşünür. Doğrudur, o hələlik vəziyyətdən çıxmaq yolunu tapmaq imkanında deyil, onu hələ ki, düşdüyü vəziyyət narahat edir. Çünki öz dostları ilə arasındakı fərqi yaxşı görür. Hər halda, onun kənddəki dostları yaxşı oxuyur, doğru danışır, bir-biri ilə səmimi davranırlar. Biri digərinin uğuruna sevinir. Biri digərinin uğuruna görə yüksək qiymətləndirir. Hətta tülkünü tutmaq üçün tülkünün yuvasına su buraxmağı o təklif etmişdi. Müəllif bununla İlkində müəyyən fəhmin, fərasətin də olduğunu diqqətə çatdırmaq istəyir. Demək onun bu üstün keyfiyyətindən yararlanmaqla onu doğru yola yönəltmək olar. Amma hələ ki, İlkin çox narahatdır. Daxili bir xəcalət hissi onu boğmaqda idi. İndi bu hissin təsiri ilə onun varlığını bir narahatlıq bürümüşdü. Müəllif bu narahatlığın uşağın aləmində yaratdığı gərginliyi uşaq aləminə yaxından bələd olan yazıçı səriştəsi ilə yazıya gətirir: “Oğlan ən çox ona görə narahat idi ki, təzə dostlarının hamısı mehriban, ağıllı, doğrucul uşaqlar idi. Özü kimi yalançı olsaydılar, bəlkə heç bu qədər nigarançılıq keçirməzdi. Belə yaxşı dostların yanında indi o biabır olmuşdu, xəcalət çəkirdi. Bir gün o bütün hərəkətlərini yadına salaraq bir qırağa çəkilib doyunca, için-için ağladı...” Beləliklə, İlkinin ağlamağı, tənhalığa çəkilib özünü bu kəskinliklə qınamağı, həyatını dəyişmək anının başlanğıcıdır. Axır ki, dərslər başlayır. Yay tətilindən qayıdan uşaqlar tətil günlərinin təəssüratlarını bölüşürlər. Amma İlkin yaşadığı sarsıntının təsiri altında özünə qapanır, kimsəyə bir söz demir. Onsuz da yaxşı oxumadığı bir tərəfə, hələ üstəlik küskünlüklə məktəb yoldaşlarından da özünü təcrid edir. Şagird yoldaşları arasında Səbinə adlı bir qız var, o, İlkini tək buraxmır. Onun daxili narahatlığının səbəblərini öyrənməyə çalışır, dərslərinə kömək edir. Beləliklə, ilk növbədə səmimiyyət hissinin İlkində bərpasına nail olan Səbinə onun qarşısına daha yeni planlar qoyur. Əl işləri görməyə təhrik edir. Tezliklə İlkin çalışqanlığı, bacarığı ilə özünü kənddə təqdim etdiyi səviyyəyə çatır. Yəni maraqlı modellər düzəldir, əşyalar hazırlayır. Tezliklə dərs əlaçısı da olur. Müəllif bu hekayə ilə diqqətə çatdırır ki, hər bir uşağın müəyyən meyil və maraq dairəsi var. Onu düzgün öyrənmək, həmin istiqamətdə bacarığını, istedadını üzə çıxarmaq mümkündür. Məhz bu cür yanaşma İlkini gələcəkdə qüsurlu şəxsiyyət olmaqdan xilas edir. İlkin kənddən qayıdanda bir daha ora getməyəcəyini, gedə bilməyəcəyini düşünürdü. Amma indi qış tətilinin çatmasını səbirsizliklə gözləyir. Onun səhvlərini etiraf etməyə gücü də çatar. Dostları ilə açıq da danışa bilər. Çünki daxili səmimiyyəti ilə o buna hazırdır. Hələ dostlarına hədiyyələr də aparacaq. Özünün əl işləri ilə onları sevindirəcək də.

Müəllif hər bir uşağın Vətən üçün layiqli vətəndaş olmasına yol açan, diqqəti, həssaslığı, doğma yanaşmanı təqdir edir. Bu hekayədə Şəfəq Nasiri biz pedaqoq yazıçı kimi görürük.

“Balaca müğənni” hekayəsi məktəbli bir uşağın - Dəyanətin həyatını təqdim edir. Onun çox yaxşı musiqi duyumu var, gözəl nəğmələr oxuyur. Hətta həyətlərindəki hündür ağaclara qalxıb bülbül kimi cəh-cəh vuranda az qala kəndin hər tərəfində adamlar onu böyük zövqlə dinləyirlər.

Günəşli kəndi gözəl bulaqları, saf havası ilə məşhurdur. Şirin bulağın suyunu içən hər kəs sanki Vətən şirəsi içir. Belə bir kənddə doğulub böyüyən Dəyanətin istedadlı olması təbii görünür. Qalır bu istedadı alovlandırmaq, inkişaf etdirmək, ona lazım olan mənəvi təminatı vermək. Şəfəq Nasir “Balaca müğənni” hekayəsi ilə məhz cəmiyyətdə bu hissi aşılamağa çalışır ki, əgər uşaqlardan Vətən sevdalı layiqli vətəndaş yetirmək istəyiriksə, onların mənəvi təminatları üçün məsuliyyətimizi dərk etməliyik. İstedadlı uşaqların Bakıda keçirilən festivalına Dəyanət də dəvət olunur. Onun bu dəvətdən sevinməsini müəllif lirik nəsir ahəngi ilə təqdim edir: “...Bu gün o, ayrı şövqlə oxuyurdu. Deyəsən, heç vaxt da belə ürəkdən, məhəbbətlə oxumamışdı. Onun səsi dağlardan aşıb gələn şəlalə kimi əks-səda verirdi. Oğlan hər şeyi unudaraq qəlbinin bütün xoş istəyi ilə oxuduğu mahnının bəndindən-bəndinə keçərək gah zilə qalxır, gah da bəmə yenirdi. İndi ona elə gəlirdi ki, göyün ən yüksək qatında dayanıb məhəbbətini aya, ulduzlara yetirir”. Bəzən yazıda elə canlılıq olur ki, oxucu müəllifin təsvirləri ilə nəfəs alır. Oxucunun ruhu qanadlanır. Şəfəq Nasirin xoş xəbərdən şövqə gələn Dəyanətin hisslərini təsviri də göründüyü kimi o qədər canlıdır ki, sanki biz həmin məqamlarda onun yanındayıq. Onunla birgə Vətən nəğməsi oxuyuruq. Və bu səsin Vətənin hər yerində eşidildiyinə inamımız var. Heç şübhəsiz bu yazıçı uğurunun təsdiqidir. Bu gün müharibə cəbhəsində şövqlə döyüşən oğulların hisslərini, həyəcanlarını səfərbər edən amillərdən biri də yazıçılarımızın, şairlərimizin Vətən sevdalı ruhlarını sözlə, sənətin gücü ilə insanların, döyüşçülərin ruhuna hopmasıdır: “Hə, Dəyanətin belə məhəbbətlə oxumasına səbəb vardı. Düz bir həftədən sonra o, Bakıda keçiriləcək məktəblilərin mahnı festivalında iştirak edəcəkdi”. Uşağın ruhən qanadlanması, bircə xoş xəbərlə mənən böyüməsi göstərir ki, insana daxili təpər verən mühit yaradılanda onun istedadı bütünlüklə üzə çıxır. Təkcə elə Dəyanətin simasında biz bunu bütün reallığı ilə görə bilirik: “Həmişə gizlində, səsini bir qədər boğaraq utanautana oxuyan Dəyanət bu xəbərdən sonra xeyli açılmışdı. İndi o, başqa avazla oxuyurdu. Budaqdan-budağa qonaraq məlahətli səsiylə eşidib-bildiyi mahnıların hamısını ürəyinin bütün sevinci ilə oxuyur, oxuyurdu...” Və burada müəllif Dəyanətin istedadı ilə onun səmimiyyətini də təqdim edir. Demək düzgün yanaşma, istedadın inkişaf etdirilməsi, insanın digər mənəvi keyfiyyətlərinə də müsbət təsir göstərir. Onun bacısına qayğısı, diqqəti həmyaşıdları üçün örnək ola bilməsi müəllifin uğurlu təsvirləri ilə oxucu gözləri önündə canlanır. O, bacısına Bakıdan hədiyyə alıb gətirəcəyini də vəd edir. Qarşıda həyəcanlı günlər var, maraqlı anlar var. Dəyanət kənddə, ağac budaqlarında bülbül kimi çağlayırdı. Bakıda, münsiflər qarşısında da eləcə oxuya biləcəkmi? Müsabiqə başlanır, onun adı elan olunur. Həyəcandan az qala səhnəyə gedə bilmir. Ancaq ətrafdan həmyaşıdların təkidləri, aparıcının çağırışı ona cəsarət verir. Doğma kəndini, budağına çıxıb oxuduğu ağacı gözlərinin önünə gətirir. Hekayənin bu məqamı da hər kəsin maraqla oxuya biləcəyi təsvirlə yadda qalır: “Təzədən çalmağa başladılar. Bu zaman onun gözlərinin qarşısında doğma kəndləri, yaraşıqlı bağları canlandı. Özünü yenə də ağacın ən hündür budağında gördü. Bununla da dodaqlarının qıfılı açıldı. Sanki bulağın gözündən axıb-gələn su qarşısındakı çör-çöpü yuyub apardı. Şirin, məlahətli səs ətrafa yayıldı. Dəyanətin bütün həyəcanı keçib getmişdi. Bu anlar o ürəyinin bütün məhəbbətiylə ifa etdiyi mahnıdan başqa heçnəyi düşünmürdü. Elə bil çalğıçılar da bu səsdən vəcdə gələrək ayrı həvəslə çalırdılar. Saraydakılar oğlanın səsinə valeh olmuşdular.

Südüdür kim dolanıb qanım olub,  
O, mənim sevgili canım olub.  
Saxlaram gözlərim üstə onu mən,  
Ölərəm, əldən əgər getsə Vətən.  
Vətəni sevməyən insan olmaz,  
Olsa, ol şəxsdə vicdan olmaz.

Mahnı sona çatdı. Saraydakı lal sükutu gurultulu alqışlar pozdu. Bundan sonra Dəyanəti bir neçə dəfə səhnəyə çağırdılar. O günü o oğlan üç mahnı ifa etdi. Hər dəfə də qucağı gül-çiçək dəstələri ilə dolub-boşaldı”. Əlbəttə, Dəyanət Bakıdan çox böyük təəssüratla qayıdır. Gəzintilər, muzeylər, dəniz kənarı. Bunların heç biri onun yadından çıxmayacaq. Ancaq qayıdarkən yolda yadına düşür ki, o bacısına hədiyyə söz vermişdi. Və indi o hədiyyə almadan geriyə qayıdırdı. Bu Dəyanəti üzürdü. Ancaq yadına düşür ki, ona Azərbaycanın tarixi yerlərinin foto albomunu bağışlayıblar. O elə həmin albomu bacısı üçün ən yaxşı hədiyyə hesab edirdi. Zənnimizcə müəllifin istedadlara qayğı, uşaqlara həssas münasibət, uşaqların bir-birinə mehribanlıq duyğuları aşılamaq istəkləri hekayədə uğurla verilib. Ən başlıcası, Vətəni sevmək duyğuları Dəyanətin obrazında kifayət qədər onun nəğməsi ilə yaddaşlara yazılır.

Lap kiçik yaşlı uşaqlar üçün yazılmış “Sən özün bir çiçəksən” hekayəsi də diqqəti cəlb edir. Müəllif çiçəyə bənzər Lalə adlı qızın uşaq duyğulanmalarını bu hekayədə həssaslıqla təsvir edir. Yaşca kiçik olmasına baxmayaraq o anasına kömək edir. Ev işləri ilə məşğul olur. Hətta özündən balaca qardaşını da ovundura bilir. Onu yedirir, qayğısını çəkir. Lalənin gül bəsləməyi isə tamam başqa aləmdir. O, çalışır ki, güllər tez açılsın, anasının ad gününü həmin güllərlə təbrik etsin. Müəllif bu hekayədə uşaq aləminin müqəddəsliyini, ülviliyini, uşaqların cəmiyyətdə ən üstün varlıq olduğunu demək istəyir. Əlbəttə, burada düşmən barbarlığı ilə uşaqların öldürülməsini də yada sala bilərik. Gəncə hadisələrində həlak olan uşaqlar vandanlar üçün heçnəylə təkzib olunmayan ittihamlardır. Güllər, çiçəkər təbiətin gözəlliyini göstərdiyi kimi, uşaqlar da cəmiyyətin gözəlliyini göstərən çiçəklər, güllərdir. Müəllif bu hekayədə uşaqların toxunulmaz, ən ali, uca varlıq olduğunu göstərmək istəyir. Və dəqiq cizgilərlə buna nail olur.

Şəfəq Nasir ustad yazıçı kimi oxucularına uşaq gizlinlərinə gedən yolu göstərə bilir.

*Əli Rza XƏLƏFLİ*  
*2020*